# "Bir vaxt bu dünyada mən olmayanda"



**"Ey həyat, sən nə qəribəsən?", "Sızlar yada düşəndə ürəyimin telləri, o mehriban, o əziz tələbəlik illəri", "Kaş millətdə ruh yaşasın", "Tələsin insanlar əldən tutmağa, tələsin ömür edib şən yaşamağa", "Sağlığında qiymət verin insanlara", "Bu dünya düzələn deyil", "Zirvələrin başı qarlı, meşələrin içi barlı, Ay kökünə etibarlı - bulaq suyu, dağ havası"... Bu gün bu məşhur və poetik misraların müəllifi görkəmli şair Cabir Novruzun anadan olmasının 92-ci ildönümüdür.**

Tanrının bəxş etdiyi ömür payını tamamilə yaradıcılığa həsr edən, müasir poeziyanın inkişafı naminə yorulmadan çalışan, çağdaş milli poetik prosesin ən mürəkkəb və narahat dövrlərində belə fasiləsiz fəaliyyət göstərib, poeziyaya bütün ilhamını və ruhunu həsr edən Cabir Novruz 1933-cü il martın 12-də Xızı rayonunun Upa kəndində dünyaya göz açıb. Erkən yaşlarından elmə və ədəbiyyata maraq göstərən gənc orta məktəbi bitirdikdən sonra Mirzə Ələkbər Sabir adına Pedaqoji Texnikumda təhsil alıb. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunub. Lakin cəmi bir il sonra Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə istedadlı gənc kimi Moskvaya Maksim Qorki adına Ədəbiyyat İnstitutuna göndərilib və 1957-ci ildə ali məktəbi uğurla bitirib. Əmək fəaliyyətinə 1958-ci ildə "Bakı" axşam qəzetinin ədəbiyyat şöbəsində ədəbi işçi kimi başlayan Cabir Novruz sonrakı illərdə Azərbaycan mətbuatının və ədəbiyyatının mühüm tribunalarına - 1967-1970-ci illərdə "Azərbaycan" ədəbi-bədii jurnalına, 1991-1993-cü illərdə isə "Ədəbiyyat və incəsənət" qəzetinə baş redaktorluq edib. Paralel olaraq, 1970-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi kimi ölkənin ədəbi proseslərində yaxından iştirak edib.



O, milli ədəbiyyatımızın dərin köklərini və zəngin ənənələrini müasir dövrün tələbləri ilə uğurla birləşdirərək, yüksək bəşəri dəyərləri tərənnüm edən əsərləri ilə oxucuların rəğbətini qazanıb. Lirik poeziyası və epik lövhələri bədii dəyəri, mövzu rəngarəngliyi ilə seçilir. Yüksək mənəvi dəyərlərə səsləyən misraları və vətəndaş ruhu ilə yoğrulmuş poetik nümunələri Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib.

Cabir Novruzun yaradıcılığı milli ruhun, vətən sevgisinin və mübarizlik əzminin poeziyadakı ən parlaq səhifələrindəndir. Onun şeirləri həm də oxucuda azərbaycançılıq ideyalarını möhkəmləndirir. Şairin poeziyası tarixi kontekstdən qidalanır, həyatın özü qədər gerçək və təsirlidir. Onun poetik dünyasında həyatın mürəkkəbliyi, insan münasibətləri və zamanın yaratdığı ziddiyyətlər xüsusi yer tutur. "Həyat, sən nə qəribəsən" şeiri də məhz bu fəlsəfi düşüncənin bədii ifadəsidir. Cabir Novruz "Bizim əsr" şeirində yaşadığı dövrün təzadlarını ustalıqla təsvir edir. O, bir tərəfdə elmin, texnologiyanın inkişafı, digər tərəfdə isə atom bombalarının yaratdığı faciələr arasında qalan insanlığın taleyini qələmə alır. Naqasaki və Xirosimanın məhv edildiyi dünya şairin misralarında həm düşündürücü, həm də sarsıdıcı bir lövhəyə çevrilir.

Onun müxtəlif illərdə nəşr olunan "İnsan məhəbbəti", "İllərin ömrü", "Bizim əsr", "Adi həqiqətlər", "Həyat, sən nə qəribəsən", "Taleyin töhfələri", "Bir dünyam var", "İnsan himnləri", "Ömür keçir karvan kimi", "Ulu dünya, heyifsən", "Vətən əbədi qoruqdur", "Özünü qoru, xalqım", "İnsanı tanımaq olmur" və digər kitabları oxucular tərəfindən böyük maraq və sevgi ilə qarşılanıb. Onun poetik dünyası insan ruhuna toxunan, həyatın dərinliklərinə enən misralarla zəngindir. Şairin yaradıcılığı və şəxsi taleyi bir-birinə bağlıdır - o, müharibənin ağrı-acısını yaşayan, itkilərin kədərini duyan bir nəslin nümayəndəsi kimi bu hissləri poeziyasında böyük ustalıqla əks etdirmişdir.

C.Novruzun misralarına bəstələnən "Məhəbbət", "Bakının qızları", "Mənim duyğularım", "Cavanlığım", "Bulaq suyu, dağ havası", "Dünya düzələn deyil", "Böyüməyə tələsmə", "Bu nə cür məhəbbətdir", "Səsim səsinə öyrəşib", "Ömür keçir", "Məhəbbət ölməyəcək", "Gəlin gələndə", "Sən oldun", "Gecikmiş məhəbbət", "Tənhalıq", "Təki sənin səsin gəlsin" mahnıları musiqisevərlərin qəlbində özünəməxsus yer tutur və illər keçsə də öz populyarlığını qoruyub saxlayır.

Bəzən insana sağlığında dəyər verilmir. Odur ki, şair söyləyib:

*Bir arzum var, ay adamlar, qoyun deyim,*
*Sağ olanda qiymət verin insanlara.*
*Yaxşılara sağ olanda yaxşı deyin.*
*Sağ olanda yaman deyin yamanlara,*
*Şairlərə sağ olanda hörmət edin,*
*Sağ olanda heykəl qoyun ölməzlərə.*
*Sağ olanda ifşa edin xəbisləri,*
*Satqınlara sağ olanda satqın deyin.*

Ümumilikdə, bu şeir təkcə fərdi bir təəssüf ifadəsi deyil, həm də cəmiyyətə ünvanlanmış bir çağırışdır, insanların dəyərini gecikmədən bilmək və qiymətləndirmək fəlsəfəsidir.

Cabir Novruzun ədəbi və ictimai fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilib. O, "Əməkdar incəsənət xadimi", "Xalq şairi" fəxri adlarına, dövlət mükafatına, müxtəlif orden və medallara layiq görülüb. 1995-ci ildə isə Azərbaycan Milli Məclisinin deputatı seçilərək ölkənin ictimai-siyasi həyatında fəal rol oynayıb. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Əməkdar incəsənət xadimi, Xalq şairi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Cabir Mirzəbəy oğlu Novruzov 2002-ci il dekabrın 12-də, ömrünün 69-cu ilində dünyasını dəyişib. Onun əsərləri bu gün də oxucular tərəfindən sevilir.

Nə xoş ki, Azərbaycan poeziyasından Cabir Novruz kimi bir şəxs keçdi.

*Bir vaxt bu dünyada mən olmayanda,*
*Məni taparsınız şeirlərimdə.*

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**